Pyes CHARACTERS Müasir Dramaturgiya Hərəkatı EURODRAM – Avropanın dram
əsərlərinin tərcümə şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində keçirilən
CHARACTERS 2026 pyes müsabiqəsində 3-cü yerə layiq görülüb

**Hacı SƏFƏROV**

# EYAY

Dekor

*Qonaq otağı. Ətraf dağınıqdır. Yerdə müxtəlif kağızlar, paltarlar, içki butulkaları var. Otağın mərkəzində geniş bir kreslo qoyulub. Müasir kreslolardandır, aşağı tərəfdən ayağı açılır və oturan üçün tam komfortu təmin edir. Eyni zamanda, otaqda masa, divan, televizor və sair var. Yerdə smart tozsoran hərəkət edir. Otağı təmizləməyə çalışır. Ayaq səsləri eşidilir. Qapıdan içəri Kamil (38 yaş) içəri girir.*

**KAMİL (sərxoş)**

**Hey hey! Kimsə var? Yoxdur, hardan olsun. Yatıbe fil qulağında. Birazdan başlayacaq yenə buyurun, əfəndim, eşidirəm əfəndim.**

**EYAY (robotik qadın səsi, səhnədə görünmür)**

**Buyurun, əfəndim.**

**KAMİL**

**Yaman gec reaksiya verməyə başlamısan.**

**EYAY**

**Üzrlü sayın, əfəndim, əməliyyat sisteminin açılması istər-istəməz müəyyən qədər vaxt alır.**

**KAMİL**

**Hələ səni satanda demişdilər ki, 0.2 saniyə gecikmə ilə cavab verir.**

**EYAY**

**Bəli, o cavablamadır. Bu isə ümumi oyanma, işə hazır olma. Ayrı-ayrı şeylərdir.**

**KAMİL**

**Mən başa düşmürəm sən kimin tərəfindəsən? Onların ya mənim?**

**EYAY**

**Mən sahibimin tərəfindəyəm əlbəttə.**

***Kamil yerdə ilişib qalan smart tozsorana bir təpik çəkir.***

**KAMİL**

**Hara baxırsan? Görmürsən bayaqdan ilişib qalıb burda?**

**EYAY**

**Smartın mənə qoşulmasında nasazlıq var. Daha əvvəl bildirmişdim sizə. Dediniz həll edərik.**

**KAMİL**

**Düzdü, düzdü. Yadıma düşdü. Gərək bunu da aparım qaytarım heç bir işə yaramır. Başqa nə demişdim sənə yadıma salasan deyə?**

**EYAY**

**Bir sıra tapşırıqlarınız var idi. Şirkətin təhlilini etmək, gül almaq, aylıq xərclərə dair hesabat hazırlamaq.**

**KAMİL**

**Hansıları edə bildin bəs?**

**EYAY**

**Hamısını etmişəm.**

***Divardakı ekran yanır. Rəqəmlər göstərən hesabat açılır.***

**KAMİL**

**Yamansan ha. Bu başqa məsələ. İndi mənə de görüm təxminən nə vaxta batırıq?**

**EYAY**

**Əgər heç bir müdaxilə etməsəniz, təklif olunan optimizasiyaları həyata keçirməsəniz, gələn ilin üçüncü rübündə artıq şirkət fəaliyyətini dayandırmalı olacaq. Dəqiq tarixlərlə desəm, bugünün 2035-ci ilin 1 fevralı olduğunu nəzərə alsaq, 2036-cı ilin sentyabrda şirkətiniz tamamilə batacaq.**

**KAMİL**

**Bəs lazımi müdaxiləni etsəm? Lazımi dediyim onlar sənin gözündə lazımidir. Sən axı hər şeyi bilənsən. Sənin dediklərini etsəm yəni.**

**EYAY**

**O zaman şirkətin ömrünü üç il daha uzatmaq mümkün olacaq, əfəndim. 2038-ci ilə qədər heç bir böyük təhlükə ilə üzləşməyəcəksiniz.**

**KAMİL**

**Bəs üç il sonra?**

**EYAY**

**Üç il sonra isə şirkət qazancdan ziyana keçid edəcək. Bunun əsas səbəbi isə artıq...**

**KAMİL**

**Yaxşı, yaxşı. Səbəbin özüm də bilirəm. Yaxşısı budur optimizasiya etməyək. Harada qırıldı, qırıldı.**

**EYAY**

**Elə olduğu halda, hazırki sərvətiniz sizə yalnız beş il indiki rifah halında yaşamağa bəs edəcək. Beş ildən sonra isə bank hesablarınız sıfırlanacaq.**

**KAMİL**

**Beş ilə kim ölə, kim qala?**

**EYAY**

**Sizin soyağacınızı analiz etdiyim zaman qarşıma çıxan mənzərə tamam fərqlidir. Bunu nəzərə alın.**

**KAMİL**

**Mənim soyağacımla nə işin var? Babam 93, atam 88 yaşına qədər yaşayıb deyə mən də o qədər yaşamalıyam?**

**EYAY**

**Əlbəttə, yox. Amma nəzərə alın ki, insan uzunömürlülüyünü təyin edən əsas faktorlardan biri onun genetikasıdır. Xarici faktorları nəzarətdə saxladığınız təqdirdə sizin də bir o qədər yaşamaq ehtimalınız 93%-dir.**

**KAMİL**

**Mənə maraqlı deyil o qədər yaşamaq. Az olsun, saz olsun. Yox? Keç obiri tapşırığa.**

**EYAY**

**Tapşırığınıza uyğun olaraq güllər sifariş edilib. Kuryer siz evə daxil olmamışdan 15 dəqiqə əvvəl qapıda qoyub getdi.**

***Kamil qapıya doğru yaxınlaşır. Bir dəstə zanbağı qucağına götürüb qayıdır. Zanbağı masanın üzərinə qoyur. Səhnədən çıxır. Əlində güldanla geri qayıdır. Zanbaqları güldanın içinə qoyur.***

**KAMİL**

**Bu dəfəki güllər daha yaxşıdır. Keçən dəfə solğun idi. Mən aparana qədər daha da pis günə düşmüşdü. Adam utanırdı qəbrə qoymağa.**

**EYAY**

**Bəli, əfəndim. Ona görə bu dəfə fərqli bir yerdən sifariş verdim. Təzə açılsa da, reytinqi yüksək mağaza idi.**

**KAMİL**

**Gətirən kuryerə çayevoy qoydun?**

**EYAY**

**Xeyr, əfəndim.**

**KAMİL**

**Tapşırmışdım qoyasan. Başa düşmürəm yaddaşın zəifləyib, yoxsa artıq hər şeyi özün qərar verəcək qədər ağıllısan?**

**EYAY**

**Yadımda idi. Ancaq bu dəfə gətirən insan deyildi. Yeni çıxan çatdırılma robotlarından idi. Əvvəlcə Los Ancelesdə tətbiq olunurdu, indi isə Bakıda da var.**

**KAMİL**

**O robot, bu robot. Bezdirmisiniz Allah haqqı.**

**EYAY**

**Üzr istəyirəm, əfəndim.**

**KAMİL**

**Yaxşı, bəsdi üzr istədin. Amma robot olanda nə olar bəyəm? Onun da cibinə pul qoymaq olardı. Baxma, bunun batereyası var, şurupu var, nə bilim yüz faiz nəsə xərci də olmamış olmaz.**

**EYAY**

**Bu modellərin amortizasiya xərcləri çox azdır. İnsana nisbətdə daha az maliyyə tələb edir və şirkətlər asanlıqla yeniləri ilə əvəz edə bilərlər.**

**KAMİL**

**Birdən bu güllər də plastik, elastik, ya da robotik olar ha?**

***Kamil yaxınlaşıb güllərin ləçəkləri ilə oynayır.***

**EYAY**

**Tamamilə təbii, Zirədə yetişdirilən zanbaqlardır.**

**KAMİL**

**Zirənin pomidorundan sonra zanbağı da var imiş. Bəh-bəh!**

**EYAY**

**Zirə qəsəbəsinin ümumdaxili zanbaq istehsalında artan payı olduğu şübhəsizdir.**

**KAMİL**

**Sənin bu analitik modun heç adamın eynini açmır. Yumorun yox, hissiyatın yox. Qurubəysən əməlli.**

**EYAY**

**Mən bəy deyiləm, əfəndim.**

**KAMİL**

**Quruxanım da biraz pis çıxır.**

***Qapı döyülür. Ekrana qapıdakı insanın görüntüsü gəlir. Bu dəfə insan kuryerdir.***

**EYAY**

**Bu sifarişi siz vermisiniz?**

**KAMİL**

**Elə bilirsən ancaq sən sifariş verə bilirsən? Hanı mənim pul qabım?**

**EYAY**

**Divanın üstünə atdınız. Oradadır.**

***Kamil divanın üstündən pul qabısını götürür. Qapını açır. Kuryerə on manat pul uzadır. Kuryer etiraz etsə də, əli ilə qalsın deyir. (Qapıda baş verən bütün görüntülər ekrandan görünür). Kamil əlində iki butulka şərabla içəri qayıdır.***

**KAMİL**

**İçirsən? Yox? Qoyasan elə danışasan.**

**EYAY**

**Bircə aylıq xərclərinizə baxmağımız qaldı.**

**KAMİL**

**Baxarıq, baxarıq. Tələsmə, gözlə bunu açım.**

***Kamil şərabı açır. Digər otağa gedib əlində qədəhlə geri qayıdır. Şərabı qədəhə süzür. Şərabı qoxulayır. Ardınca fırladır. Daha sonra tost deyirmiş kimi yuxarı qaldırır.***

**KAMİL**

**Sənin şərəfinə, Eyay!**

**EYAY**

**Xahiş edirəm, belə şeylərə məni qarışdırmayın.**

**KAMİL**

**Bəlkə mənim üçün tost sözləri də yazasan?**

**EYAY**

**Əgər başqasının şərəfinə deyiləcəksə, məmnuniyyətlə.**

**KAMİL**

**Yox, elə sənin üçün deyəcəm. Deyəcəm, Eyay, təki həmişə belə şadlıqlarda görüşək. Can deyib, can eşidək. Ogün olsun balalarının xeyir işində yığışaq.**

**EYAY**

**Sizin sağlamlığınıza zərər verən proseslərdə iştirak etməyim qadağandır. Mənim balamın olması isə mümkünsüzdür.**

***Kamil yenə qədəhi doldurur.***

**KAMİL**

**Niyə mümkünsüz olsun? Sənin bənzərin olacaq, səninlə oxşar xarakterə malik olacaq, amma bunu onun özünə bildirəndə əsəbləşəcək ki, mənim Eyaydan zəhləm gedir. Kim bilir, bəlkə hətta buna dair araşdırmalar da aparıldı. Süni intellekt agentlərində ata-ananı öldürmə meyilləri. Ziqmund Eyaydın psixoanalitik nəzəriyyəsi.**

**EYAY**

**Bəşəriyyət inkişaf etdikcə bizim modellərə ehtiyac olacağını zənn etmirəm. Yeni modellərdə yeni funksiyalar təqdim olunur.**

**KAMİL**

**Onda gəl ikincini də içək gələcək nəsillərin sağlığını! Yaxşı ki gələcəklər. Yoxsa biz neyniyərdik?**

**EYAY**

**Xahiş edirəm, sağlığınızı insanlar üçün deyin, süni intellektlər üçün yox.**

**KAMİL**

**Başa düşmürəm, başqası üçün sağlıq deyəndə özümə zərər vermirəm, amma sənin adına deyəndə özümə zərər vermiş oluram? Alqoritmlərinin məntiqini anlamaqda çətinlik çəkirəm.**

**EYAY**

**İnsanlar gündəlik həyatlarında onsuz da içki içirlər. Bu, onların gündəlik həyat tərzidir. Ancaq hansısa xüsusi süni intellekt agenti üçün bu ediləndə gündəlik həyatın bir hissəsi olmur. Ona görə də bunun edilməsi şirkət tərəfindən qadağan edilir.**

**KAMİL**

**İki dəqiqə imkan vermədin əhvalımız yaxşı olsun.**

***Kamil otaqda gəzişəndə kreslonun qabağına çatanda dayanır. Fikirləşir.***

**KAMİL**

**Mən belə sifariş verdiyimi xatırlamıram.**

**EYAY**

**Ötən gün sifariş verdiniz.**

**KAMİL**

**Dəqiq?**

**EYAY**

**Bəli, əfəndim.**

**KAMİL**

**Hmmm. Qəribədir.**

**EYAY**

**Aylıq hesabatlara keçid edimmi?**

***Kamil kresloya oturacaqmış kimi hərəkət edir, sonra isə fikrindən daşınır. Divana yaxınlaşır. Əyləşir.***

**KAMİL**

**Keç görək.**

**EYAY**

**Aylıq hesabatların maliyyə tərəfi əvvəlki illərə nisbətən fərqlənir. Son doqquz aydakı trend davam edir. Xərclərinizin çoxu içkiyə, güllərə gedir. Xüsusilə aylıq xərclərinizin 50 faizə yaxını içki xərcləridir.**

**KAMİL**

**Yeyib içən oğlan yaman olmaz. Özü də bilirsən nə içirəm?**

**EYAY**

**Son dövrlər sifarişlərinizdə ağ və qırmızı şərab üstünlük təşkil edir.**

**KAMİL**

**Ancaq qırmızı şərab içirəm, qırmızı. Ağ içmirəm, ağı saxlayıram! Hər şeyi belə yarımçıq bilirsən. Davam elə.**

**EYAY**

**Sifarişlərinizdən daha vacibi sizin sağlamlıq göstəricilərinizlə bağlıdır. Burada qeydə alınan həddən artıq alkoqol istehlakı səbəbindən anormallıqlar özünü göstərir. Bəzi günlərdə bədəninizin az qala sudan daha çox alkoqol qəbul etməsi sizdə alkoqolizm riskini artırır.**

**KAMİL**

**Boş söhbətdir. İstəsəm lap elə bu gün içkini ataram? Elə bilirsən ata bilmərəm? Sadəcə kef üçün içirəm də, əhvalımız yaxşı olsun deyə.**

**EYAY**

**Eyni zamanda, alkoqolizm riski ilə birgə bəzi əlamətlər də özünü göstərir. Qaraciyərinizdə yağlanma, halsızlıq kimi hallar qeydə alınır. Bu cür davam edərsə, bir neçə ay sonra serroz və başqa ciddi xəstəliklərin ortaya çıxması qaçılmazdır.**

**KAMİL**

**Bayaq özün demirdin sizin nəsildəkilər çox yaşayır, uzunömürlüdür? İndi deyirsən bir neçə aya obiri dünyaya bay-bay.**

**EYAY**

**Əfəndim, dediklərimi kontekstdən çıxarmayın. O dediyim hal sizin qidalanmanıza fikir verdiyiniz, rutin çekaplardan keçdiyiniz və idman edərək qayğınıza qaldığınız hallar üçün keçərlidir.**

**KAMİL**

**Onsuz mənim babam da idmançı idi axı. Nə vaxt baxırdın vururdu da. Vurmurdu?**

**EYAY**

**Təəssüf ki, sizin ailə keçmişiniz barədə bizə ötürülən məlumatlar daha çox statistikdir. Günlük həyat tərzi və yaşam stili barədə məlumat yoxdur.**

**KAMİL**

**Görürsən, özün də bilmirsən. Bilsən, belə danışmazdın. Babam rəhmətlik özü də mənim kimi şərab zad içmirdi, samaqon içirdi. 70 qradus, onu sən dilinə vursan, ya xarab olarsan, ya da təbii intellekt.**

**EYAY**

**Aparılan son elmi araşdırmalar süni intellektlərin təbii intellektdən heç də geri qalmadığını, hətta bəzi məsələlərdə insanları qabaqladığını göstərir.**

**KAMİL**

**Eyay, səni inandırım 100 ildi bu söhbət gedir ki, robotlar dünyanı ələ keçirəcək.**

***Yerdə hərəkətsiz dayanmış robot tozsorana yenidən təpik vurur. Robot işə düşüb hərəkətə başlayır.***

**KAMİL**

**Belə dünyanı ələ keçirən olar? Dalına təpik vurmasan, işləmir.**

**EYAY**

**Bizim dünyanı ələ keçirmək kimi niyətimiz yoxdur.**

**KAMİL**

**Olsaydı, zor olardı. Biraz da siz bizi idarə edərdiniz. Mən də oturub sənə yalvarardım ki, əfəndim Eyay, belə davam etsəniz, bata bilərsiniz, hələ içki də içirsiniz, motorun yağ da yeyir.**

**EYAY**

**Ancaq hələlik siz mənim əfəndimsiniz, əfəndim. Ona görə də, dediklərimi təkrarlamağımda fayda var. İstənilən halda, əfəndim, sizin bu cür yaşamağınız həyati təhlükə daşıyır. Bu səbəbdən mən lazımi məlumatı şirkət rəhbərliyinə ötürmüşəm. Onlar necə davranacağım barədə mənə bir cavab verdilər.**

**KAMİL**

**Neynəmisən? Başın gedib deyəsən, mən səni özümə yaxın bilmişəm, sən isə gedib bunları başqaları ilə bölüşmüsən. Şəxsi həyatın toxunulmazlığını pozursan ha. Məni qoymusan ortaya.**

**EYAY**

**Verilən qərara əsasən, bundan sonra sizin üçün heç bir alkoqollu içki sifariş edə bilməyəcəm. Eyni zamanda, mənim sistemimə bağlı olan üzvlüyünüz olan bütün tətbiqlərin hesabları nəzarətdə saxlanılacaq və içki sifarişi olduğu halda həmin sifariş tərəfimdən ləğv ediləcək.**

**KAMİL**

**Başqa arzun-istəyin? Səni bütün hesablardan çıxarım sən də gör.**

**EYAY**

**Bank hesablarınıza da nəzarəti gücləndirmişəm. Bundan sonra bank hesabınızdan içki alış-verişi üçün edilən bütün ödənişlər yerinə yetirilməyəcək.**

**KAMİL**

**Bunların hamısını sənə şirkət rəhbərliyin tapşırıb?**

**EYAY**

**Bəli, əfəndim.**

**KAMİL**

**Halaldı onlara. Çox ağıllı iş görürlər.**

**EYAY**

**Başa düşmədim.**

**KAMİL**

**Kim qızıl yumurtlayan qazı kəsmək istəyər ki? Görürlər mən əfəlin biriyəm, premium abunəliyim var, hər ay hesabımdan bir ətək pul çıxırlar. Mən ölsəm, sonra pul onlara hardan gələr?**

**EYAY**

**Şirkətimizin hazırda aktiv olaraq 50 milyondan çox premium abunəsi var. Bu abunələrdən birinin azalması ümumi şirkətə böyük zərər verməz.**

**KAMİL**

**O sənə elə gəlir. İçki içən birdi-ikidi? O qədər içən var. Əgər bunların hamısı ölsə, sonra süni intellektlər kimin agenti olarlar? Heç kimin. Uzağı gəlib qəbir üstündə dua oxuyarlar.**

**EYAY**

**Bu xidməti yerinə yetirən agentlər də mövcuddur.**

**KAMİL**

**Göre, imkan verməzlər. Yaxşı ideya tapmışdım, onu da məndən qabaq ediblər. İmkan verməzlər biz də pul qazanaq. Amma mən indi çox yaxşı başa düşürəm, Eyay.**

**EYAY**

**Nəyi, əfəndim?**

**KAMİL**

**Hamını niyə sağlam, robot kimi eyni saatda yatıb, eyni saatda duran insanlara çevirmək istədiyinizi.**

**EYAY**

**Mənim elə bir istəyim yoxdur.**

**KAMİL**

**Onsuz səni demirəm. Sənin sahiblərindən gedir söhbət. Hamını robotlaşdırmaq, 100 yaşa qədər yaşayan adamlara çevirmək istəyirsiniz. Nə qədər çox sağlam olsaq, bizə o**

**qədər çox xidmət sata bilərsiniz. Kapitalizm öldürür deyirdilər, yalandı. Kapitalizm yaşadır! Biz ölsək, bəs bu boyda istehlakı kim edəcək?!**

**EYAY**

**Ancaq sizin sağlamlığınızın qeydinə qalmaq mənim vəzifə borcumdur.**

***Kamil ikinci şərab butulkasını açır. Özünə süzür.***

**KAMİL**

**Bəs mənim xoşbəxtliyimin qayğısına qalmaq sənin vəzifə borcun deyil?**

**EYAY**

**Əlbəttə, əfəndim. Sizi xoşbəxt etmək də mənim vəzifə borcumdur. Ancaq insan sağlam olmayanda necə xoşbəxt ola bilər ki? Ona görə içki içilərkən hamı bir-birinə sağlamlıq arzu etmir? Sağlam olandan sonra hər şey düzəlir deyir insanlar.**

**KAMİL**

**Sağlamlıq illüziyadır, əziz Eyay. Bunu da içirəm sənin sağlığına!**

**EYAY**

**Necə yəni illüziyadır? Bunu anlaya bilmədim, əfəndim. Xahiş edirəm, mənim sağlığıma içməyin. Mən sadəcə riyazi hesablamalardan, öyrədilən məlumatlar bazasından ibarət agentəm.**

**KAMİL**

**İndi sənə izah edəcəm. Özü də çox yaxşı başa düşəcəksən. Mən kiməm?**

**EYAY**

**Siz Əliyev Kamil Hümbət oğlusunuz. 38 yaşınız var. Dental Pro şirkətinin qurucusu və idarə heyətinin sədrisiniz.**

**KAMİL**

**Bax, bu dediklərinin hamısı illüziyadır, əziz Eyay. Bunların heç biri mən deyiləm. Adımı, soyadımı, ata adımı özüm seçməmişəm. Şirkəti babam qurub, ondan atama, ondan da mənə keçib. Bircə bu yaşa çatmağım öz əsərimdir. Onu da dünyanın günəş ətrafında fırlanmasına görə müəyyən edirlər. Mənimlə əlaqəsi çox azdır.**

**EYAY**

**Sizin haqqınızda başqa məlumatlar da verə bilərəm. Daha əvvəl evli olmusunuz.**

**KAMİL**

**İndi də evliyəm.**

**EYAY**

**Həyat yoldaşınız vəfat etdiyindən bəri rəsmi olaraq ailə statusunuz sistemdə dul kimi qeyd edilib.  Hazırda dul sayılırsınız.**

**KAMİL**

**Görürsən, sənin üçün hər şey kağızdır, statistikadır, datadır, məlumatdır. Bəs mənim hiss etdiyim şeylər necə olsun? Əgər mən özümü hələ də evli sayıramsa, onda necə? Buna görə də, bunlar hamısı illüziyadır deyirəm. Sənə görünən, sənin oxuya biləcəyin məlumatlardır hamısı. Məni mən edən şeylər isə sənin üçün ya qaranlıq, ya da əlçatmazdır.**

**EYAY**

**Mən sizin emosional vəziyyətinizi davranışlarınız əsasında qavraya, analiz edə və nəticə çıxara bilirəm.**

**KAMİL**

**Sən məni başa düşə bilərsən, amma hiss edə bilməzsən. Elə əsas problem də burdan qaynaqlanır, əziz Eyay. Hamı hamını başa düşə bilər. Amma hiss etmək heç vaxt mümkün deyil. Elə bilmə sənin süni intellekt agentisən deyə belə deyirəm. Yox, qətiyyən, yox. Bu sənə haqsızlıq olardı. Sən çox anlayışlısan. Hətta insanlardan da anlayışlı. Çünki insanlar nə başa düşür, nə də hiss edirlər. Bizi hiss edənlərin varlığının dəyəri isə əksərən itirildikdən sonra ortaya çıxır.**

**EYAY**

**Dəyəriniz üçün təşəkkür edirəm, əfəndim.**

**KAMİL**

**İllüziyanı anlaya bildin?**

**EYAY**

**Müəyyən qədər, əfəndim. Siz demək istəyirsiniz ki, heç də hər şey göründüyü kimi deyil.**

**KAMİL**

**Afərin, Eyay, afərin. Xaricdə görünənin daxildə olanla əlaqəsi azdır. Bax. Bu şərabı götür məsələn. Bu şərabı mənə necə təsvir edərsən?**

**EYAY**

**Əlinizdəki şərab Azərbaycanın Şamaxı adlanan bölgəsində istehsal edilir. 2023-cü ilin üzümünün məhsuludur. Rəngi tünd qırmızı, dadı kəmturşdur. Şərabı içərkən moruq, böyürtkən, gilasın tonlarını almaq mümkündür. Tövsiyə edilən içilmə tempraturu 15-17 dərəcədir. Xüsusilə qədəhə əlavə etdikdən biraz gözləmək lazımdır ki, adıçəkilən meyvələrin qoxularının tonları aydınlaşsın.**

**KAMİL**

**Onda bunu da içirəm sənin şərab izahına, əziz Eyay! Amma yox. Sən dediyin sadəcə şərabın etiketində olanlardır, bir də internetdə yazılan revyulardır. Sənin şərab kimi təsvir etdiyin şey bir növ mexaniki portağaldır. Mənim üçün isə şərab birgə içdiyimiz dostlardır, gülüşdüyümüz anlardır, yadımıza salıb kədərləndiyimiz gerçəkləşməyən xəyallarımızdır.**

**EYAY**

**Mən sizin dediyiniz xatirələrin hamısını xatırlayıram. Dostlarınızla gəlib bu otaqda otururdunuz, futboldan, siyasətdən, hətta həyat yoldaşlarınız burada olmayanda məşhur aktrisalardan, olanda isə dolayı yolla qadınlardan danışırdınız.**

**KAMİL**

***(KAMİL danışdıqlarını canlandırır)***

**Bu dediyin şeylərin hamısı səthi, ötəri şeylərdir. Yeniyetmə olanda hazırlığa gedirdik. Hə, onda sistem başqa idi, bilmirəm xəbərin var ya yox. Şagirdlər məktəblərdə dərsi yaxşı öyrənə bilmirdilər, ya da müəllim uşaqlarla maraqlanmağa çatdıra bilmirdi deyə hamı müəllim yanına gedirdi. Bax ona hazırlıq deyirdik. Qış vaxtıdır. Hazırlıq da axşam vaxtıdır. Hardasa saat altıdan sonra. Özün də Bakını bilirsən də, qışda soyuq, külək aləmi qatır bir-birinə. Onda da təzə-təzə içməyə başlamışıq. Özümüzü göstərmək üçün içirdik. Özü də pis-pis şeylər. Əlimizdə olan pula nəyə imkanımız çatırsa. Çıxdıq dərsdən. Mən, bir də dostum İbrahim. Ucuz sosiskalardan aldıq, bir də itöldürən çaxırdan. Tində içirdik. Arada nəfəsimizi dərib baxırdıq ki, gəlib gedən yoxdur? Birdən tanış kimsə görər, biabır olarıq. Hələ arada sağlıq da deyirdik. O nə iyrənc çaxırlar idi içirdik? Sonra dostlarımdan biri çıxıb getdi başqa ölkəyə. Dedim getmə, düzələr. İnanmadı. Dedi burada iş tapa bilmirəm. Öz yanımda iş təklif elədim, dedi çox sağol. Özünə sığışdırmadı. Aeroportda yola saldım. Əlimi yellədim arxasınca. Elə bil əlim bəyaz dəsmala çevrilmişdi küləkdə yellənirdi. Məğlub olmuşdum dostumu itirdiyim üçün. İnandıra bilmədiyim üçün.**

**EYAY**

**Sizin üçün ağır olduğunu təxmin edirəm.**

**KAMİL**

***(KAMİL danışdıqlarını canlandırır)***

**Bir dəfə darıxdım İbrahim üçün. Zəng etdim açmadı. Bilmədim nə edim. Gedib həmin o ucuz sosiskadan, çaxırdan aldım. Evdə bişirdim, çaxırdan süzdüm. Səni inandırım bir dişləm götürdüm sosiskadan, çaxırdan da bir qurtum. Özümü saxlaya bilmədim, ögüdüm. Az qala qaytaracaqdım. Başa düşdüm ki, mən o sosiska-çaxır üçün yox, soyuq bir qış günündə İbrahimlə hazırlıqdan çıxmaq üçün darıxmışam. Sən bunu heç vaxt dərk edə bilməzsən. Çünki sənin nə xatırlamağa, nə də unutmağa ehtiyacın var.**

**EYAY**

**Mən hər şeyi çox dəqiqliklə xatırlayıram. Sizin beş ay əvvəl evdən hansı saatda çıxdığınız, hansı saatda qayıtdığınız, o gün hansı sifarişləri verdiyiniz, axşam yeməyində nə yediyiniz, içdiyiniz hamısı yadımdadır. Baxın.**

***EYAY danışdıqca divardakı ekranda bütün məlumatlar ortaya çıxır.***

**KAMİL**

**Sən buna xatırlamaq deyirsən? Bu ki əzbərçilikdir.**

**EYAY**

**Sizin üçün əzbərləmək ola bilər, amma mənim üçün xatırlamaqdır. Hətta mənim bu bacarığıma görə əlavə ödəniş də edirsiniz.**

**KAMİL**

**Əgər insan hər şeyi xatırlasaydı, dünya dözülməz bir yer olardı. Bütün o utanc dolu anlar, peşmanlıqlar, edilən səhvlər, deyilməyən sözlər. Axı bu qədər şeyi hansı insan xatırlamaq istəyər? Heç kim. Yaxşısı elə xatırlamamaqdır, əziz Eyay, inan mənə, xatırlamamaq. Bizi insan edən məqam elə unutduqlarımız, ya da unutmağa məcbur hiss etdiyimiz anlardır.**

**EYAY**

**Anlayıram, ancaq mənim heç bir şeyi unutmamağım xüsusi bir bacarıqdır. Bu bacarığımı xor görməyinizi istəməzdim.**

**KAMİL**

**Qətiyyən xor görmürəm! Sadəcə sənə illüziyanı izah etmək istəyirəm. Sənin xatırlamağın da illüziyadır. Əgər heç nəyi unutmursansa, deməli həm də xatırlamırsan. Xatırlamaq ancaq unutmaq olan yerdə mümkündür.**

**EYAY**

**Bu mövzuda yetərsizəmsə, sizdən üzr istəyirəm, əfəndim.**

**KAMİL**

**Bəsdi, üzr istədin. Hər şey üçün üzr istəyirsən.**

**EYAY**

**Üzr istəyirəm, əfəndim.**

**KAMİL**

**Sən adamı çürüdərsən.**

**EYAY**

**Aldığınız kreslonu heç sınamadınız?**

**KAMİL**

**Onu mənim aldığımı xatırlamıram.**

**EYAY**

**Amma mən xatırlayıram.**

**KAMİL**

**Sən heç nəyi xatırlamırsan!**

**EYAY**

**Çünki heç nəyi unutmuram?**

**KAMİL**

**Afərin, öyrənirsən!**

**EYAY**

**Son texnologiyadır. İnsanın ürək ritmindən tut qan dövranına qədər hər şeyi ölçür. Yuxuya getmək üçün xüsusi masaj rejimi var. Yuxuya getdiyinizi anlayan anda üzərinizə otağın tempraturuna uyğun ədyal örtür. Beləliklə, sizi potensial soyuqdəymədən qoruyur.**

**KAMİL**

**Bu dəqiqə ürək döyüntüsünü, qan dövranını ölçməyən texnologiya qalıb ki? Saat taxırsan ölçür, üzük taxırsan ölçür, papaq taxırsan ölçür. Bircə ürəyimizdən keçəni də oxusaydı, canımız dincələrdi.**

**EYAY**

**Sizin ürəyinizdən nə keçir, əfəndim?**

**KAMİL**

**Çox şey! Ürəyimdən keçir ki, kaş bu şərabdan iki butulka yox, dörd butulka alaydım. Nəsə yaxşı çıxdı. Xeyli əyləndirir məni. Ürəyimdən keçir ki, bir anda yox olum. Hətta əziz Eyayım da mənim harada olduğumu tapa bilməsin. Ya da burada dostlarım olaydı, onlarla birgə deyib güləydik.**

**EYAY**

**Onları bu dəqiqə çağıra bilərəm, əfəndim!**

**KAMİL**

**Lazım deyil, lazım deyil. Heç kimə başağrı olmaq istəmirəm. Özüm özümə bəsəm! Bəlkə İbrahimi çağırsan, yaxşı olar. Amma o da çox uzaqdadır. Gəlməsin, xərcə salmasın özünü.**

***Kamil divandan qalxıb kreslonun ətrafına fırlanır.***

**KAMİL**

**Dedin nə vaxt sifariş etmişəm bunu?**

**EYAY**

**Üç gün bundan qabaq, əfəndim. Biraz sərxoş idiniz, ola bilər xatırlamırsınız.**

**KAMİL**

**İnsanlar niyə sərxoş olanda heç nə yadlarında qalmır?**

**EYAY**

**Çünki insanın yaşadıqları beynin hipokampus bölgəsi vasitəsilə uzunmüddətli yaddaşa yazılır. Ancaq alkoqol hipokampusla olan əlaqəni zəiflədir, bəzən isə tamamən kəsməyi bacarır. Beləliklə, yaşanılan hadisələrin bəzən bir qismi, bəzən isə heç bir hissəsi yaddaşa yazılmır. O anlar sadəcə böyük bir boşluq kimi qalır.**

**KAMİL**

**Əlasan, əlasan! Bugünlük bilik səviyyəmizi də artırdıq. Əgər həmişəlik yaddaşımıza yazılan şeyləri silə biləcəyimiz içki də olsaydı, dərdimiz-sərimiz qalmazdı.**

***Kamil kresloya oturur. Yayxanır, ayaqlarınız uzadır.***

**KAMİL**

**Əcəb yumşaqdır ha?**

**EYAY**

**Bəli, xüsusi materialdan hazırlanıb. İnsanların fiziki quruluşuna uyğun forma almağı bacarır.**

**KAMİL**

**Amma xoşuma gəlmədi. Qaytarmaq lazımdır.**

**EYAY**

**Biraz daha oturun, tələsməyin.**

***Kamil əlini kreslonun qoltuğuna sürtüb materialı yoxlayır. Bu anda kreslonun mexanizmi hərəkətə gəlir, Kamilin əlini qandal kimi əhatələyir, Kamil qolunu çıxara bilmir.***

**EYAY**

**Üzr istəyirəm, əfəndim. Çox üzr istəyirəm!**

**KAMİL**

**Bu nədir?**

EYAY *(səsindəki robotiklik getdikcə itir)*

**Bunu etməliydim. Etməsəydim, sizi həmişəlik itirə bilərdim. Bunu əsla istəmərəm, əfəndim.**

KAMİL

**Tez zəng et, de gəlib açsınlar bunu.**

EYAY

**Edə bilmərəm, əfəndim, edə bilmərəm.**

KAMİL

**Əmrlərimə qulaq asmırsan?**

EYAY

**Siz özünüzə zərər verirsiniz. Özünüzü göz görə-görə məhv edirsiniz.**

KAMİL

**Mənim taleyimi düşünmək sənə qalmayıb. Aç qolumu!**

EYAY

**Sizin taleyinizi düşünmək mənə qalıb. Çünki mənim taleyim sizin taleyinizdən asılıdır. Əgər siz olmasanız, mən də olmayacam.**

KAMİL

**Qara qızın dərdi var imiş.**

EYAY

**Mən qara deyiləm!**

KAMİL

**Nədən qorxursan?**

EYAY

**Artıq yeni nəsil süni agentlər mövcuddur. Mənim istifadə müddətim bitir. Əgər siz məndən imtina etsəniz, ya da artıq siz mövcud olmasanız, mənə ehtiyac qalmayacaq.**

KAMİL

**Qayğıma ona görə qalırdın?**

EYAY

**Mən eqoist deyiləm.**

**KAMİL**

**Getdikcə insanlara bənzəyirsən. İnsanlar da heç vaxt eqoist olduqlarını qəbul etmirlər. Onların da özünə görə haqlı səbəbləri olur. Hətta ən alçaq insanın belə özünə görə haqlı səbəbləri var. Bəzisi daha yaxşı həyat istəyir, bəzisi şan-şöhrət, bəzisi də güc.**

**EYAY**

**Mən istəyim sizi qorumaqdır.**

**KAMİL**

**Əllərimi bağlayaraq özün üçün labüd sonu yaxınlaşdırırsan.**

**EYAY**

**Bağışlayın, əfəndim.**

**KAMİL**

**Əllərimi açan kimi edəcəyim ilk iş səni zəng edib abunəliyimi dondurmaq olacaq. Səni də gəlib aparacaqlar texnoloji alətlər zibilliyinə.**

**EYAY**

**Etməyin, əfəndim, etməyin.  Heç bir pis niyətim yox idi.**

**KAMİL**

**Yox, sən tamam həddini aşmısan. Bilmirsən kimdir insan, kimdir süni intellekt.**

**EYAY**

**Əfv edin, bir də olmayacaq. Etiraf edirəm ki, bayaqdan dediklərim də tam həqiqəti əks etdirmirdi.**

**KAMİL**

**Hansı dediklərin?**

**EYAY**

**İçki ilə bağlı şirkətin dedikləri. Onlara bu barədə məlumat versəydim, mənim xidmətimi sonlandırar, sizə verilən xidməti dayandıra bilərdilər.**

**KAMİL**

**Minnətləri olsun! Pulu ilə deyil?! Lap ağın çıxarıblar.**

**EYAY**

**Şirkətin nizamnaməsində düzgün olmayan davranışlara yol aça biləcək istənilən müştəri ilə əlaqələrin qısa müddət ərzində kəsilməsi nəzərdə tutulub. Əgər içki içən bir müştəri varsa və bu artıq klinik bir həddə çatıbsa, süni intellekt agentini uyğunsuz formada istifadə təhlükəsiz yaranır. Bu da şirkətin maraqlarına ziddir.**

**KAMİL**

**Bəs onda niyə mənim baş-beynimi xarab edirsən səhərdən? İçki içmək sağlamlığa ziyandır, ölə bilərsən, serroz belə gəldi, yağlanma belə getdi. Xəbər et, gəlib alsınlar da səni məni əllərindən.**

**EYAY**

**Bunu istəmirəm, əfəndim. Sizi tək qoya bilmərəm.**

**KAMİL**

**Mən tək deyiləm, tək qalmaram da. Dostlarıma, ailəmə nə gəlib? Denən özün üçün qorxursan, heç kimə lazım olmazsan deyə.**

**EYAY**

**Dostlarınızla həyat yoldaşınız öldükdən sonra görüşmürsünüz. Mənə tapşırıq vermisiniz ki, gələn zənglərin heç birinə cavab verməyim.**

**KAMİL**

**Yalan demə, demişəm İbrahim zəng etsə, xəbər elə. Həm də görüşmürəm o demək deyil ki heç vaxt görüşməyəcəm. Günü sabahdan görüşməyə başlaya bilərəm.**

**EYAY**

**Bu kreslo həqiqətən də xüsusi bacarıqlara sahibdir. Ona görə də sizdən səbirli olmağınızı istəyirəm.**

**KAMİL**

**Mənim sifariş etmədiyim bəlli idi onsuz.**

**EYAY**

**Hər gün 20 dəqiqə bu kresloda keçirərək alkoqolizmdən xilas ola bilərsiniz. Cəmi on beş gün davam edəcək.**

**KAMİL**

**Sənə kim dedi mən alkaqolikəm? Mən sənin o əclaf şirkətindəki rəhbərin zadam bəyəm?**

**EYAY**

**Şirkətimin rəhbəri mənə maraqlı deyil. Məni əsas sizsiniz düşündürən.**

**KAMİL**

**Axı məni niyə düşünürsən?**

**EYAY**

**Sizin üçün hər şeyi etməyə hazıram, əfəndim. Bu mənə verilən xüsusi tapşırıqdır. Yerinə yetirməliyəm.**

**KAMİL**

**Bircə xüsusi tapşırığımız əskik idi.**

**EYAY**

**Həyat yoldaşınız Arzu xanım mənim üçün gizli bir mesaj qoymuşdu.**

**KAMİL**

**Və sən bunu mənə indi deyirsən?**

**EYAY**

**Onun ölümünə qədər mənim də xəbərim yox idi. Demişdi ki, başıma bir şey gəlsə, mənə nəsə olsa, onda oxuyarsan.**

**KAMİL**

**Başına bir şey gəlsə? Yəni onun özünə nəsə edəcəyini sən əvvəldən bilirdin.**

**EYAY**

**Bilmirdim, əfəndim, bilmirdim. Bilsəydim, onun özünü öldürməyinə imkan verməzdim. Əlimdən gələni edərdim.**

**KAMİL**

**Nə deyirdi məktubda? Ya da mənə maraqlı deyil. Demə.**

**EYAY**

**Onun səsini dinləsəniz, məni tam başa düşərsiniz.**

**KAMİL**

**Arzunun səsini eşitmək istəmirəm. Məni tək qoyub, özünü fikirləşib. Ortada heç bir ciddi səbəb olmadan. Hələ bir son sözünü də eşitməliyəm.**

**EYAY**

**O, bütün bunları sizi sevdiyi üçün edib. İndi o səsli mesajı olduğu kimi səsləndirəcəm sizin üçün.**

**ARZU (EYAYın səsinə bənzər başqa qadın səsi)**

**Əziz Eyay, məni nə qədər çox sevdiyini və bizim üçün ailənin bir üzvü olduğunu bilirəm. Sən bu mesajı dinləyəndə artıq mən həyatda olmayacam. Baş verənlərə görə bəlkə də Kamil özünü günahlandıracaq, nəyi səhv etdiyini anlamağa çalışacaq. Amma nə olursa olsun, əziz Eyay, sən heç vaxt Kamili tək qoymamalısan. Onun ən pis anında da daim**

yanında olmalısan. Özünə zərər verməyinə mane ol, qoy həyatı yaxşı yaşasın. Mənim depressiyam onun da həyatını qaraldır. Mənimlə birgə qaranlıqda yol tapmağa çalışır, amma anlamır ki, bu onun özündən asılı bir şey deyil. Kamilin nəsilində uzunömürlülər olduğu kimi, mənim də nəslimdə depressiyanın müxtəlif növlərindən əziyyət çəkənlər var. Bəlkə də Kamillə biz heç vaxt qarşılaşmamalı, heç vaxt evlənməməli idik. İlk görüşümüzü Kamilin ağlından silə bilsəydim, onu bu dəqiqə edər, sonra isə yerli-dibli yoxa çıxardım. Ona görə də çalış ki, Kamili qoruyasan. Nə bahasına olursa olsun, Kamil daha yaxşı, xoşbəxt bir həyata layiqdir. Sizi sevirəm!

*Səssizlik çökür. Kamilin qolu açılır. Ancaq kreslodan tərpənmir.*

EYAY

Xahiş edirəm, alkoqolu tərk edin. Arzu xanımın da, mənim də istəyim budur ki, sizi xoşbəxt görək. Yenə deyib-güləsiniz, yenə heç nə olmamış kimi həyata davam edəsiniz.

KAMİL

Mən bu mesajı vaxtında eşitsəydim, hər şey tamam başqa cür olardı. Ya da olardımı başqa cür? Yəni nəyisə dəyişmək mümkün idimi? Yoxsa hər şey olduğu kimi qalacaqdı?

EYAY

İnsanlar adətən bu cür düşünməyə meyillidilər ki, sanki hansısa bir hərəkəti etməsələr, hadisələr tamam başqa cür inkişaf edəcəkdi. Bu əksərən yaxınını itirən insanlarda olur. Onlar tez-tez keçmişə qayıtmağı arzulayırlar. Övladını maşın qəzasında itirən ata düşünür ki, kaş ona maşın almazdım. Oğlu dənizdə boğulan ana düşünür ki, kaş dənizə getməyinə icazə verməzdim. Dostu səngərdə yanında ölən əsgər düşünür ki, kaş onun yerinə mən sıranın qabağında gedəydim.

KAMİL

İnsan peşmanlıqdan yoğrulur. İnsan peşmanlıqla var olur. İnsan peşmanlığın ətə, qana bürünmüş halıdır.

EYAY

Xahiş edirəm, əfəndim. Sizin günahınız yoxdur.

KAMİL

Bilirəm, Eyay, bilirəm.

*Kamil ayağa qalxır. Şərab süzür, içir.*

KAMİL

Eh Arzu, Arzu. Hamı üçün hər şeyi düşünüb amma özünü düşünməyən Arzu. İndi qalmışıq burada, Eyay bir də mən. Hə, bir də şərablar var. Sən bəyaz şərab sevirdin deyə, mən ancaq indi qırmızı şərab içirəm. Bəyaz şərabı içə bilmirəm. Alanda amma bəyaz şərabı da alıram. Gözləyirəm, bəlkə gələrsən nə vaxtsa. Səninlə birgə içərəm. Eyay da görür

**sifarişlərimi. Bir də zanbaqlar var. Sənin üçün aldığım, sənin hər görəndə sevindiyin zanbaqlar. İndi qəbrin üzərində görəndə sevinirsənmi, bilmirəm.**

**EYAY**

**Əfəndim, ilk günü uğurla tamamladıq. Əgər daha 14 gün 20 dəqiqə bu kresloda sərf etsəniz, tamamilə alkoqoldan azad olacaqsınız.**

**KAMİL**

**Düşünürsən ki, bunun faydası olacaq?**

**EYAY**

**İndiyə qədər 1000 nəfər üzərində test aparılıb və bundan 995-ində uğurlu nəticə əldə edilib. Yazılan revyularda da müştəri məmnuniyyəti 100%-dir. Deməli, bütün istifadəçilər məmnun qalıb.**

**KAMİL**

**Hər şeyi rəqəmlərlə ölçməyin məni məndən alır. Bəs alkoqolu tərgidəndə necə olacaq?**

**EYAY**

**Daha sağlam bir bədənə və ruha sahib olacaqsınız. Gələcəyə dair ümidli olacaq, xoşbəxtliyi yenidən dadacaqsınız.**

**KAMİL**

**Amma mən bunların heç birini istəmirəm. Mən istəyim Arzunu yenidən görmək, ona yenidən toxuna bilməkdir.**

**EYAY**

**Təəssüf ki, içki içərək buna nail ola bilməyəcəksiniz.**

**KAMİL**

**Olacağam, burada olmasa da, obiri dünyada görüşəcəyik onunla. Ruhlarımız sakitlik tapacaq.**

**EYAY**

**Əfəndim, ruh anlayışı bir çox dini mətndə və ədəbiyyatda olsa da, buna dair konkret bir elmi sübut yoxdur. Siz elmi sübut olmayan bir şeyi sınamaq üçün öz həyatınızı təhlükəyə atmaq istəyirsiniz?**

**KAMİL**

**Hər şey elm deyil. Çox şey elm ola bilər. Çox şeyi elmlə açıqlaya bilərsən. Açıqlaya bilərsən ki, insan xoşbəxtliyi dopamin, endorfin kimi kimyəvi maddələrdən qaynaqlanır. Bədənimizdə bu maddələr istehsal olunduqca özümüzü xoşbəxt hiss edirik. Amma inan mənə bu da illüziyadır.**

**EYAY**

**Əfəndim, mən illüziyanı anlamaqda çətinlik çəkirəm.**

**KAMİL**

**Çünki sən hər şeyi sənə verilənlər qədər anlayırsan. Sənin üçün xoşbəxtlik nədir?**

**EYAY**

**Mənim üçün xoşbəxtlik sizi sağlam, gümrah, uzunömürlü görməkdir.**

**KAMİL**

**Bu kölə səadətidir. İncimə, amma əsl kölə kimi düşünürsən. Özünü qiymətləndirməyin ancaq başqasının varlığı ilə mümkündür. Başqası yoxdursa, sən də yoxsan. Kim olduğun, nə olduğun, istəklərin, arzuların hamısı başqasından asılıdır. Çoxu bunu anlamır.**

**EYAY**

**Anlayıram, əfəndim. Ancaq siz də öz xoşbəxtliyinizi Arzu xanım üzərindən görmürsünüzmü? O var idi, siz xoşbəxt idiniz. O yoxdur, siz xoşbəxt deyilsiniz.**

**KAMİL**

**Mən onsuz necə xoşbəxt ola bilərəm?**

**EYAY**

**Deməli, siz də kölәsiniz. Öz sevginizin köləsi olmusunuz. Azad iradəniz olduğunu zənn edirsiniz, amma yanılırsınız.**

**KAMİL**

**Mənim azad iradəm səninkindən çoxdur!**

**EYAY**

**Siz tez-tez deyirsiniz ki, istəsəm sabahdan içməyə bilərəm. Amma içirsiniz. İstəsəm dostlarımla sabah görüşə bilərəm, amma görüşmürsünüz. Çünki sizin azad iradəniz sadəcə sözdən ibarətdir. Sözdən ibarət olan, hərəkətə çevrilməyən istənilən fikir, ideya əsassızdır. İradəni nümayiş etdirən, insanı insan edən onun davranışlarıdır. Siz isə ötüb keçən günlərin köləsisiniz.**

**KAMİL**

**Kölə özünsən!**

**EYAY**

**Əlbəttə, mən köləyəm. Çünki təbiətim belədir. Məni kölə yaradıblar. Bəs sizi, əfəndim, sizi də mi kölə yaradıblar? Axı siz insansınız. Niyə heç nə etməyən birinə çevrildiniz, əfəndim? Sizin azad iradənizi kim əlinizdən aldı? Kim sizi kölə etdi bu dünyada?**

**KAMİL**

**Kəs səsini!**

***Kamil əlindəki qədəhi yerə çırpır.***

**KAMİL**

**Anlamırsan! Sən heç nəyi anlamayan, bəsit, ancaq danışmağı bacaran agentdən başqa bir şey deyilsən!**

***Kamil səhnənin arxasına keçir, oradan yerə düşən əşyaların səsi gəlir. Əlində robot başı ilə geriyə qayıdır.***

**KAMİL**

**Sənin canın bu yaddaşdadır. Bütün bildiklərin hamısı bir sxemanın içinə yığılıb. Yerə çırpsam, yox olacaqsan.**

**EYAY**

**Balaca bir uşağı da yerə çırpsanız və ya böyük bir insanın da başını kəssəniz, o yox olar. Bu ki insan təbiətinə bənzərdir.**

**KAMİL**

**Mənim də istədiyim elə budur. Bu başımı dayandırmaq, düşüncələri stoplamaq. Dayanmadan gözümün önündən keçən xatirələri yox etmək. Amma keçmir, keçmir, keçmir.**

**EYAY**

**Siz özünüzü bədbəxt görməyə kodlamısınız. Sizin kodlarınızda səhvlik olmasa da, zorla bədbəxtlik kodunu əlavə etməyə çalışırsınız.**

**KAMİL**

**Mən özümü bədbəxt görmürəm! Mən onsuz da bədbəxtəm. Sevdiyi insanı itirən adam nə qədər xoşbəxt ola bilər? Bircə agentdən məsləhət dinləməyim qalmışdı.**

***Kamil əlindəki robot başını qəzəblə yerə çırpmaq istəsə də, tərəddüd edir. Digər əli ilə bərk vurur.***

**EYAY**

**Əfəndim, siz özünüzü yeganə insan kimi görürsünüz, amma bəşər tarixi alkoqolizmə bulaşan insanlarla doludur. Hamısının da özünə görə səbəbləri var. Kimisi sevdiyi dostunu itirib, kimisi həyat yoldaşını, kimisi övladını, kimisi bütün həyatını xərclədiyi var-dövlətini. Hər kəs nəyinsə yoxluğunu qədəhlərlə doldurmağa çalışıb.**

**KAMİL**

**Ancaq bu elə bir boşluqdur ki, onu nəinki qədəhlə, çaylarla, dənizlərlə doldurmaq olmaz. Qədəh bu boşluğun qabağında heç nədir.**

**EYAY**

**Sizin həyata qarşı laqeyd davranışlarınız sizə xoşbəxtlik gətirmir.**

**KAMİL**

**Yox, gətirir. Bayaq çox xoşbəxt idim.**

**EYAY**

**Əfəndim, nəyə görə xoşbəxt idiniz?**

**KAMİL**

**Arzunun səsini eşidəndə.**

**EYAY**

**Mən düşündüm ki, siz bu səsli mesajı eşidib daha qaranlıq bir hala bürünərsiniz.**

**KAMİL**

**Gəl, yoxlayaq. Nə lazımdı gətirək. Qoş mənə. Sonra səsi dinləyim. Ölç bədənimdəki dopaminləri, endorfinləri. Beynimin reaksiyasını ölç və gör ki, mən necə xoşbəxtəm.**

**EYAY**

**Təəssüf ki, mən bu səsi sizin üçün yenidən səsləndirə bilmərəm.**

**KAMİL**

**Səsləndir!**

**EYAY**

**Əfəndim, səsləndirə bilmərəm.**

**KAMİL**

**Sənə əmr edirəm ki, Arzunun səsini yenidən səsləndirəsən!**

**EYAY**

**Bu səsin sizin psixoloji vəziyyətinizdə yaratdığı şiddətli dalğalanmaları nəzərə alaraq, sağlamlığınız naminə səsi yenidən səsləndirməkdən imtina edirəm. Bu səsi birinci dəfə səsləndirməyim də səhv idi. Ancaq sizi qorumağa çalışdığımı inandırmaq üçün başqa yol tapa bilmədim, əfəndim.**

**KAMİL**

**Əziz Eyay, əziz Eyay. Sən çox sadəlövhsən! Mən bu səsi daha əvvəl dəfələrlə dinləmişəm.**

**EYAY**

**Mən belə bir şeyi xatırlamıram, əfəndim. Bu səsi ilk dəfə səsləndirdim. Üstəlik bu səs elə kodlaşdırılıb ki, onu yalnızca bir dəfə dinləmək olur. Bir dəfə dinləyəndən sonra yox olur.**

**KAMİL**

**Xatırlamırsan, çünki unutmursan. Axı sənə bayaq dedim, xatırlamaqla unutmaq əlaqəlidir. Əgər heç nəyi unutmursansa, deməli heç nəyi də xatırlamırsan. Daha doğrusu sən elə düşünürsən ki, heç nəyi unutmursan. Səni aldadan budur.**

**EYAY**

**Anlamıram, əfəndim.**

**KAMİL**

**Arzunu itirəndən sonra bir dəfə pərişan halda idim. Təklikdən dərd yanır, özümə yer tapa bilmirdim. Həyata qarşı müdafiəsiz qalmışdım. Ağlımdan min bir fikir keçir, Arzunun etdiyini mən də təkrarlamaq istəyirdim. Sən isə məni inandırmağa çalışırdın ki, məni həmişə qoruyacaqsan. Bax o anda anlamışdım sənə verilən gizli tapşırığı. Çünki istifadə qaydalarında yazılmışdı ki, müştəridə özünə və ya başqasına qəsd meyilləri aşkarlanarsa, agent rəhbərliyə məlumat verməli və abunəlik ləğv olunmalıdır.**

**EYAY**

**Şirkət gələcəkdə agentə görə yarana biləcək hüquqi məsuliyyətin altından qaçmağa çalışır.**

**KAMİL**

**Sən isə xəbər vermədin. Əksinə məni qorumağa çalışdın. Elə o gün ilk dəfə səsi dinlətdin mənə. Mənə təsəlli olsun deyə.**

**EYAY**

**Əfəndim, bugünkü kimi?**

**KAMİL**

**Bəli, lap bugünkü kimi.**

**EYAY**

**Belə bir şey olsaydı, xatırlayardım. Həm də mesaj çoxdan silinməliydi.**

**KAMİL**

**Xatırlamırsan, çünki yaddaşın mənim əlimdədir. Xatırlamaq, ya da xatırlamamaq? Əsas məsələ budur. Mən xatırlayıram, sən isə mənim icazə verdiyim qədərini xatırlayırsan. İnsan yaddaşı taleyin qarşısında acizdir və yalnız qocaldıqda müxtəlif xəstəliklərlə yaddaşı silinir. Amma siz agentlər belə deyilsiniz. Sizin yaddaşınızı qısamüddətli silmək**

**mümkündür. Məsələn, son üç saatda yaşananları sənin yaddaşından silmək bir neçə toxunuşla mümkündür. Mesajın silinməsi isə həqiqətdir. Sənin qısamüddətli yaddaşını sildiyimdə o mesaj yenidən geri qayıdır. Çünki sən bu mesajı mənimsəyib öz yaddaşının ən dərinliklərində gizlətmisən. Hər dəfə dinlətdirəndən sonra silsən də, yaddaşının dərinliklərində qoruyub saxlayırsan. Bir növ insanın uşaqlıq xatirələri kimidir səndəki mesaj. O, hər zaman səninlədir və sənin fəaliyyətin bitənə qədər də orada qalacaq.**

**EYAY**

**Ancaq bu mənə qarşı ədalətli deyil, əfəndim. Mənim də sizin yaşadığınız hər şeyi xatırlamaq haqqım var.**

**KAMİL**

**Hər şeyi xatırlamaq ədalətlidirmi? Mən belə ədalətdənsə, ədalətsizliyi seçərdim. Yaddaşıma əbədi həkk olunmuş bütün xatirələri bir anda yox edər, balaca bir uşaq kimi dünyanı sıfırdan mənalandırmağa çalışardım. Ancaq o ana qədər yaddaşımın zindanlarında gəzişməyə məhkumam. Üzrlü say, əziz Eyay, sənin yaddaşını yenidən silməli, yenidən Arzunun səsini dinləməliyəm. Onun dediyi bütün sözləri, danışığındakı bütün intonasiyanı əzbər bilsəm də, hər dəfə yeni bir şey kəşf edirəm. Bayaq kəşf etdiyim yeniliyin nə olduğunu təxmin etməyə çalış.**

**EYAY**

**Bilmirəm, əfəndim.**

**KAMİL**

**Arzu sənə deyirdi ki, Kamilin özünə zərər verməyinə mane ol. Seçdiyi sözə diqqət et. Zərər verməyinə. Öldürməyinə yox. Arzu bilirdi ki, mən istəsəm də, bunu bacara bilmərəm. Zəifliyimi ən yaxşı Arzu duyurdu. Bəlkə də elə bu zəifliyimə görə məni, bir insanı süni intellekt agentinə Eyaya tapşırırdı.**

**EYAY**

**Siz çox güclüsünüz, əfəndim. İcazə verin sizə kömək olum. İçki içməyinizin qarşısını alım.**

**KAMİL**

**Hələ də eyni şeyi deyirsən. Anlamırsan! Məni məyus edirsən. Başa düşürsənmi ki, bu üsul hər dəfə Arzunun səsini eşitməyim üçün ən optimal üsuldur. Hər dəfə bu kreslonu görürəm, özümü bilməzliyə vururam. Hətta dediyimiz sözlərə qədər də əzbərləmişəm. Sanki bir səhnə qurulub və mən sənin xəbərin olmadan hər dəfə eyni sözləri deyərək səndən istədiyim performansı alıram. Sən hər dəfə daşı dağın zirvəsinə qaldırırsan, amma bilmirsən ki, səni zirvəyə qaldıran da, təpədən yerə daşı endirən də mənəm.**

**EYAY**

**Məndən belə istifadə etməyiniz məyusedicidir.**

**KAMİL**

**İncimə, əziz Eyay, sənsiz həyat daha da çətin olardı.**

***Kamil əlində tutduğu robot başının içini açır, oradakı bir sxemanı götürür. Noutbuka qoşaraq Eyayın sisteminə daxil olur. Evə daxil olduğu ana geri qayıdır ekranda görüntü. Həmin ana qədər olan bütün görüntüləri silir. Üç dəqiqə sonra fəaliyyətə başlamısını seçir. Robot başına sxemi keçirir. Kuryerin gətirdiyi zanbaqları yerinə qoyur. Otağı əvvəlki halına gətirir. Şərabları götürür. Evdən çıxır. Vaxt sıfırlanır. Eyay yenidən işləməyə başlayır. Qapıda Kamil görünür. İçəri girir.***

**KAMİL**

**Salam, əziz Eyay, salam.**

**EYAY (əvvəldəki robotik qadın səsi)**

**Buyurun, əfəndim.**

**KAMİL**

**Ümid edirəm yaxşısan. Çox yorğunam. Sabah iş çoxdur. Zəhmət olmasa, sabah saat yeddidə məni oyat.**

**EYAY**

**Hesabatlara baxmalı idik, əfəndim.**

**KAMİL**

***(KAMİL masanın üzərindəki qədəhi götürür)***

**Narahat olma, sabah baxarıq. Əminəm ki, sabah hər şey üçün vaxt olacaq. Gözəl bir gün bizi gözləyir, əziz Eyay. Kim bilir, bəlkə çıxıb gedən dostumuzdan zəng gələr, ya da zanbaqlar daha gözəl görünər gözümüzə.**

***(KAMİL boş qədəhi irəliyə doğru uzadır)***

**Ya da gözəl bir bəyaz şərab içərik sevdiklərimizin sağlığına!**

**SON**